## 2023-cü ildə Göyçay rayonunun iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

2023-cü ildə rayonda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 466307,4 min manatlıq və ya 2022-ci illə müqayisədə 12,7 faiz çox ümumi məhsul buraxılışı olmuşdur.

Məhsul və xidmətlərin 67,1 faizi istehsal sahələrinin, 32,9 faizi isə xidmət sahələrinin payına düşmüşdür.

Məhsul və xidmətlərin 12,3 faizi sənaye, 31,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 45,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 9,6 faizi tikinti, 0,6 faizi informasiya və rabitə sahələrində istehsal edilmişdir.

**Sənaye.** 2023-cü ildə sənaye istehsalı indeksi 113,0 faiz təşkil etmişdir. Sənaye məhsulunun 0,3 faizi mədənçıxarma sənayesinin, 88,4 faizi emal sənayesinin, 11,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı və 0,1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrinin payına düşür.

**Kənd təsərrüfatı.** 2023-cü il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 210659,9 min manat təşkil etmişdir ki, onun da 76269,3 min manatı heyvandarlıq, 134390,6 min manatı isə bitkiçilik məhsullarının payına düşür.

**Bitkiçilik.** 2023-cü ildə 20314,3 hektar sahədə kənd təsərrüfatı bitkilərinin cəmi əkini aparılmışdır. Bu da ötən illə müqayisədə 613,8 hektar və ya 3,1 faiz çoxdur. Əkin sahəsinin 13324,5 hektarını dənli və dənli paxlalı bitkilər, 191,0 hektarını kartof, 665,3 hektarını tərəvəz, 56,5 hektarını bostan, 6077,0 hektarını çoxillik otlar təşkil edir.

2023-cü ildə 229,9 hektar yeni bağlar salınıb, ümumilikdə 6941,6 hektar meyvə və giləmeyvə bağları mövcuddur.

2023-cü ildə 13324,5 hektar dənli və dənli paxlalı bitkilərin sahəsindən 36017,1 ton məhsul toplanmışdır. O cümlədən, 6539,0 hektar buğda sahəsindən 18310,0 ton, 6554,5 hektar arpa sahəsindən 17042,0 ton, 40,0 hektar dən üçün qarğıdalı sahəsindən 206,7 ton, 191,0 hektar çəltik sahəsindən isə 458,4 ton məhsul yığılmışdır.

Mövsümün əvvəlindən sahələrdən 3022,1 ton kartof, 57668,1 ton tərəvəz, 1191,2 ton bostan, 89198,1 ton meyvə və giləmeyvə toplanmışdır.

**Heyvandarlıq.** 2023-cü ildə quş əti də daxil olmaqla diri çəkidə 9013,0 ton ət, 20105,0 ton süd, 18648,0 min ədəd yumurta, 124,7 ton yun istehsal edilmişdir.

2024-cü il yanvarın 1-i vəziyyətinə 36368 baş iribuynuzlu mal-qara, o cümlədən 18308 baş inək və camış, 66273 baş qoyun və keçi mövcud olmuşdur.

**Tikinti.** 2023-cü ildə iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 46438,0 min manat vəsait yönəldilmişdir. Vəsaitin 96,8 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki illə müqayisədə tikinti-quraşdırma işlərinə sərf edilmiş vəsaitin həcmi 2,7 dəfə artmışdır. İstifadə edilən investisiyanın 42146,2 min manatı dövlət mülkiyyətinin, 4291,8 min manatı isə qeyri-dövlət mülkiyyətinin payına düşür.

**Pərakəndə ticarət və ödənişli xidmət.** 2023-cü ildə istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 455594,6 min manat olmaqla 2022-ci ilə nisbətən 40229,0 min manat və ya 0,5 faiz artmışdır.

2023-cü ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2022-ci illə müqayisədə 14,7 faiz artaraq 82954,6 min manat olmuşdur.

**Nəqliyyat, informasiya və rabitə.** 2023-cü ildə avtomobil nəqliyyatı müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 732,0 min ton

yük və 12149,0 min nəfər sərnişin daşınmışdır. Əvvəlki illə müqayisədə 74,0 min ton və ya 11,2 faiz yük, 2033,0 min və ya 20,1 faiz sərnişin daşınması çox olmuşdur.

2023-cü ildə informasiya və rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara faktiki qiymətlərlə 2613,7 min manatlıq və ya əvvəlki illə müqayisədə 454,2 min manat və ya 21,0 faiz çox xidmət göstərilmişdir.

**Demoqrafik vəziyyət.** Əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında 2024-cü il yanvar ayının 1-i vəziyyətinə hesablanmış əhalinin sayı 118504 nəfər təşkil etmişdir.

Əhalinin ümumi sayından 34349 nəfəri (29,0 faizi) şəhər, 84155 nəfəri (71,0 faizi) kənd sakinləridir. Əhalinin 50,1 faizini kişilər, 49,9 faizini isə qadınlar təşkil edir.

2023-cü ilin yanvar-dekabr ayları ərzində 1375 doğulan körpə və 761 ölüm halı qeydə alınmış, əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi 11,6, ölüm səviyyəsi isə 6,4 təşkil etmişdir.

2023-cü ildə Rayon Qeydiyyat Şöbəsi tərəfindən 621 nikah və 169 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,2, boşanmaların sayı 1,4 olmuşdur.

2023-cü il ərzində rayona daimi yaşamaq üçün 85 nəfər gələn və 42 nəfər gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 43 nəfər təşkil etmişdir.

**Əməkhaqqı və yeni iş yerləri.** 01 yanvar 2024-cü il vəziyyətinə rayonun iqtisadiyyatında məşğul olanların sayı 53266 nəfər olmaqla rayon əhalisinin 44,9 faizini təşkil edir.

01 dekabr 2023-cü il vəziyyətinə məşğul əhalinin 11507 nəfəri muzdla işləyənlər olmuşdur. Əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsir edən orta aylıq nominal əməkhaqqı 2023-cü ilin yanvar-noyabr ayları üzrə 577,5 manat olmaqla ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,7 faiz artmışdır.

Dövlət Məşğulluq Agentliyinin yerli qurumunda rayon üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 2023-cü ildə 4604 nəfər olmuşdur.

2024-cü il yanvar ayının 1-i vəziyyətinə 70 yeni iş yeri açılmışdır ki, bunların da hamısı daimi iş yerləridir. Açılmış iş yerlərindən 24-ü yeni yaradılmış müəssisə və təşkilatlarda, 46-sı mövcud müəssisə və təşkilatlarda olmuşdur.

**Kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətləri.** 2023-cü ilin dekabr ayında 2023-cü ilin noyabr ayı ilə müqayisədə kənd təsərrüfatı və ərzaq məhsullarından soğanın, pomidorun, xiyarın, badımcanın, şirin bibərin, bananın, narın, heyvanın, xurmanın, naringinin, mal ətinin, yumurtanın, kərə yağının, uzun düyünün, qarabaşaq yarmasının, peçenyenin qiyməti bahalaşmışdır. Eyni zamanda kökün, süfrə çuğundurunun, quş ətinin, buğda ununun, pendirin qiyməti ucuzlaşmışdır.

2023-cü ilin dekabr ayında 2022-ci ilin dekabr ayı ilə müqayisədə kənd təsərrüfatı və ərzaq məhsullarından mal ətinin, qoyun ətinin, uzun düyünün, manna yarmasının, peçenyenin qiyməti bahalaşmışdır. Eyni zamanda, quş ətinin, kərə yağının, buğda ununun, pendirin, qarabaşaq yarmasının, şəkərin, şəkər tozunun, karamelin qiyməti ucuzlaşmışdır. Digər malların qiymətlərində ciddi dəyişiklik olmamışdır.

**Təhsil.** 2023/2024-cü tədris ilinin əvvəlinə 1397 uşağın təlim-tərbiyəsi ilə məşğul olan 34 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. 1865 nəfər müəllimin çalışdığı, 17997 nəfər şagirdin təhsil aldığı 57 dövlət ümumtəhsil məktəbi var. Bundan başqa 102 nəfər müəllim kollektivinin çalışdığı, 1398 nəfər tələbənin təhsil aldığı Dövlət İdarəetmə və Texnologiya Kolleci və 60 nəfər müəllim və mühəndisin çalışdığı, 466 nəfər tələbənin təhsil aldığı Peşə Liseyi fəaliyyət göstərir.

**Mədəniyyət.** 312,9 min nüsxə kitab fondu olan 37 kütləvi kitabxana, 10 mədəniyyət evi, 17 klub, 1 uşaq musiqi məktəbi, 3 muzey fəaliyyət göstərir. 2023-cü ildə kitabxanalarda 32,8 min nəfər oxucu olmuş, muzeylərə fərdi gələnlərin sayı 4,3 min nəfər, ekskursiyaya gələnlərin sayı 27,9 min nəfər olmuşdur.

**Səhiyyə.** 2024-cü ilin əvvəlinə fəaliyyət göstərən 1 xəstəxana, 17 həkim məntəqəsi, 31 tibb məntəqəsi və 1 təcili yardım müəssisəsində 151 nəfər həkim, 441 nəfər orta tibb işçisi çalışmış, əhalinin hər 10000 min nəfərinə 12,7 həkim, 37,2 orta tibb işçisi düşmüşdür.

2023-cü ildə qeydə alınmış xəstəliklər arasında tənəffüs orqanlarının, qan dövranı sisteminin, bəzi infeksion və parazitar, sümük-əzələ və birləşdirici toxumanın, həzm sisteminin, əsəb sistemi və hissiyyat orqanlarının xəstəlikləri üstünlük təşkil etmişdir.

**Pensiya, sosial təminat.** 2024-cü il yanvar ayının 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsin 2 saylı Mərkəzi Aran Regional filialında Göyçay rayonu üzrə 11350 nəfərə pensiya, 6617 nəfərə sosial müavinət, 4792 nəfərə təqaüd, 873 nəfərə birdəfəlik müavinət ödənilmişdir. Bundan başqa 412 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin edilmişdir.

**İdman.** Rayonda Olimpiya İdman Kompleksi, 183 idman qurğusu, 1-1,5 min yer tutan stadion, 41 qapalı idman zalları, 3 idman məktəbi fəaliyyət göstərir.

**Hüquqpozmalar.** Göyçay Rayon Polis Şöbəsində 2023-cü ildə 192 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da əhalinin hər on min nəfərinə hesabı ilə 16,2 hadisə təşkil edir. Qeydə alınmış cinayətlərin 39-u ağır və xüsusilə ağır xarakterli cinayətlərə aiddir.

**Regionların Sosial- İqtisadi İnkişafı Dövlət Proqramı (2019-2023-cü illər).**

Qeyri-neft sektorunun inkişafı məqsədi ilə "AzNar" Qapalı Səhmdar Cəmiyyətində məhsul istehsalını artırmaq üçün daha müasir avadanlıqların quraşdırılması, araq istehsalı sexinin, 3,0 min tonluq soyuducu anbarın, "Göyçay-Şərab" ASC-də konyak və tünd içkilər spirti zavodunun tikintisi, "Göyçay-Süd" ASC-də pendir sexinin daha müasir avadanlıqlarla təmin olunması işləri başa çatdırılmışdır.

Rayonun Bığır, Şəhadət, İkinci Ərəbcəbirli, Qarabaqqal, Potu kəndlərində 148 hektar sahədə intensiv nar bağı salınıb. Məlikkənd, Qızılağac, Potu, Bığır və Cəyirli kəndlərində 383 hektar sahədə intensiv badam, heyva, gilas, xurma və alça bağları salınıb. Ləkçıplaq, Qızılağac, Potu və digər kəndlərdə 20 hektar sahədə intensiv faraş tərəvəzçilik istixanaları təşkil edilmiş, Potu kəndində yerli fermer tərəfindən 50 başlıq cins heyvandarlıq təsərrüfatı yaradılıb. Cəyirli kəndi ərazisində 4000 tonluq və Yalman kəndi ərazisində 2500 tonluq soyuducu anbar istifadəyə verilib.

"Aqrolizinq" ASC-nin rayon bölməsinin sərəncamında 63 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası var. Yanvar-dekabr ayları ərzində bölməyə 1 ədəd çalaqazan aqreqat, 1 ədəd Sampo 2065 markalı kombayn, 1 ədəd ağır diskli mala alınmışdır.

Telekommunikasiya və poçt xidmətinin yaxşılaşdırılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilmiş, rabitə xətləri və dirəklərin təmiri işləri aparılmış, 102 abonentə yeni telefon xətti çəkilmiş, 483 ədəd telefonların bərpası işləri aparılmış, 6440 metr hava rabitə xətti texniki normaya gətirilmişdir. "AzerOnLİNE" şirkəti tərəfindən şəhər və kənd yaşayış məntəqələrində telefon və internet təminatını yaxşılaşdırmaq məqsədilə müasir texnologiya əsasında fiberoptik kabel çəkilişi işləri davam etdirilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün suvarma arxlarının 538,8 km-lik hissəsində 838,4 min kubmetr həcmində lildən təmizləmə işləri, 10 ədəd hidrotexniki qurğuda təmir işləri aparılmışdır. Şəkər, Qaraxıdır, Veysəlli, Mırtı, Müskürlü, Çərəkə, Şəhadət, Çaxırlı, Məlikkənd kəndlərinin ərazisindəki kollektor-drenaj şəbəkədə 39810 p/m hissəsində 83600 kub.metr həcmində lildən təmizləmə işləri aparılmışdır.

Yataqxana binalarında məskunlaşmış mənzil şəraiti ağır olan köçkün ailələri üçün 80 mənzilli, özəl investisiya hesabına 20 və 12 mənzilli yaşayış binası inşa edilmiş, Əli Kərim adına parkda və Şəhidlər Xiyabanında abadlıq işləri aparılmış, şəhərin Əli Kərim parkında uşaq əyləncə mərkəzinin tikintisi davam etdirilmiş, şəhid ailələri və müharibə əlilləri üçün kiçik ticarət obyektlərinin tikintisinə başlanmışdır.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün Regional Məşğulluq Mərkəzi filialında 424 nəfər işsiz şəxs (277 nəfəri kənd təsərrüfatı, 147 nəfəri istehsal-xidmət) müxtəlif işlərə cəlb olunmuşdur. Onlardan 107 nəfəri qadın, 65 nəfəri gənc, 12 nəfəri şəhid ailəsi üzvü, 7 nəfər cəzaçəkmə müəssisəsindən azad olunan şəxs, 33 nəfər əlilliyi olan şəxs, 3 nəfər məcburi köçkün olmuşdur.

Göyçay şəhərində 3, 4 və 8 saylı, Müskürlü, Qarabaqqal və Çayarxı kəndlərində uşaq bağçaları istifadəyə verilmiş, Çaxırlı kənd tam orta məktəbinin və Çaxırlı kənd ümumi orta məktəbinin əsaslı təmir işləri başa çatdırılmışdır.

Ləkçılpaq kənd 1 nömrəli tam orta məktəbinin əsaslı təmir işləri, Göyçay şəhər 6 nömrəli tam orta məktəbin əsaslı təmir işləri, Bığır kənd 3 nömrəli tam orta məktəb üçün yeni binanın tikintisi başa çatdırılmışdır.

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| | **2023-cü il, faktiki** | **2023-cü il 2022-ci ilə nisbətən, faizlə** |
|---|---|---|
| Ümumi məhsul buraxılışı, min manat | **466 307,4** | **112,7** |
| Sənaye məhsulu, min manat | **57 296,1** | **113,0** |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat | **46 438,0** | **7,2 d.** |
| Kənd təsərrüfatı məhsulu, min manat | **210 659,9** | **107,4** |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | **732,0** | **111,2** |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin | **12 149,0** | **120,1** |
| İnformasiya və rabitə xidmətləri, min manat | **2 613,7** | **121,0** |
| Pərakəndə ticarət dövriyyəsi, min manat | **455 594,6** | **100,5** |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | **82 954,6** | **114,7** |
| Orta aylıq nominal əməkhaqqı, manat | **577,5** | **112,7** |